# Siz yəhudilərlə döyüşmədikcə, arxasında yəhudinin gizləndiyi daş: "Ey müsəlman, arxamda yəhudi var, gəl onu öldür"-söyləmədikcə Qiyamət qopmaz

Əbu Hureyradan (Allah ondan razı olsun) rəvayət edildiyinə görə Allah Rəsulu (Allahın salavatı və salamı onun üzərinə olsun) belə dedi: "Siz yəhudilərlə döyüşmədikcə, arxasında yəhudinin gizləndiyi daş: "Ey müsəlman, arxamda yəhudi var, gəl onu öldür"-söyləmədikcə Qiyamət qopmaz."

[Səhih] [Müttəfəqun aleyhi(əl-Buxari və Musliminsəhih gördüyü hədislər)]

Allah Rəsulu (Allahın salavatı və salamı onun üzərinə olsun) müsəlmanlarla yəhudilər döyüşmədikcə Qiyamətin qopmayacağı haqda xəbər vermişdir. Hətta, yəhudi müsəlmandan qaçıb daşın arxasında gizləndikdə, Allah daşı dilə gətirəcək və daş müsəlmana səslənərək yəhudinin arxasında gizləndiyini söyləyəcək ki, gəlib onu öldürsün.

https://sunnah.global/hadeeth/az/show/65023